# Ağdam şəhər məktəbinin məzunları 42 ildən sonra görüşdülər



Bu il Ağdam şəhər 6 nömrəli tam orta məktəbin 85 illik yubileyidir. Qarabağımızın 30 il ərzində erməni təzavüzünə məruz qalmış digər təhsil müəssisələri kimi Ağdam 6 nömrəli məktəb də erməni qəsbkarları tərəfindən dağıdılıb, viran edilib.

SSRİ-i Xalq Komissarları Sovetinin 16 may 1934-cü il tarixli xüsusi qərarına uyğun olaraq yaradılan və 1936-cı ildən fəaliyyətə başlayan Ağdam ilk onillik şəhər orta məktəbi 1944-1945-ci dərs ilində ibtidai sinfə çevrilib, 1949-1950-ci dərs ilində yediillik, 1960-1961-ci dərs ilində səkkiz illik icbari məktəb olub. 1975-1976-cı dərs ilində isə yeni müasir tipli üçmərtəbəli binaya köçərək onillik təhsil sisteminə keçib. Məktəbin lazimi avadanlıqlarla təmin olunmuş 30 sinif otağı, zəngin kitabxanası, geniş idman zalı, 2 emalatxana, 24 fənn kabineti (fizika, kimya, biologiya, ədəbiyyat, tarix, informatika və s.) şagirdlərin istifadəsinə verilib.

Məktəbin ilk direktoru Sərdar Xudiyev olub. Məmməd Səmədov, Valeh Hüseynov, Knyaz Quliyev sonralar bu təhsil ocağına rəhbərlik ediblər. Müəllimlərdən Hacıağa Əliyev (fizika), Babakişi Qaracayev (fizika), Gülyaz (fizika), Mahirə Bağırova (riyaziyyat), Fazil Bəhramov (ədəbiyyat), Mərqufə Ağamirova (biologiya), Validə Cəfərova (kimya), Nüşabə Kərimova (biologiya), Fatma xanım (coğrafiya), Haqverdi Verdiyev (tarix) və b. adlarını çəkmək olar.

Bir neçə tanınmış elm, maarif, mədəniyyət, incəsənət xadimləri, səhiyyə işçiləri bu məktəbin yetirmələri olub.

23 may tarixində Ağdam şəhər 6 nömrəli məktəbin 1978-1979-cu ilin buraxılış məzunları məktəbi bitirmələrinin 42 ilini, həm Ağdam məktəbinin 85, həm də 1993-cü ildən erməni əsirliyində olan Qarabağın gözəl guşələrindən biri - Ağdamın erməni işğalından azad olunmasını qeyd ediblər. Həmin gün keçmiş məzunlar öz tələbəlik illərini sevinclə, qürur hissi ilə xatırlayıblar, keçmiş xatirələrindən, kövrək uşaqlıq illərindən danışıblar. Məzunlardan hazırda ABŞ-da yaşayan, rəssam, dizayner, memar kimi fəaliyyət göstərən Yavər Rzayev xatirələr işığında Qarabağa, uşaqlıq illərinə qiyabi səyahət edib, sinif pəncərəsindən gördüyü Şahbulaq dağı, yaşadığı evdən cəmi 3 dəqiqəlik məsafədə yerləşən Natəvan xanımın imarəti, Pənah xanın məqbərəsi ilə bağlı kövrək xatirələrini paylaşıb. Məzun-rəssamın "Könlüm keçir Qarabağdan" sərgisi ilk dəfə olaraq ABŞ-ın Qarabağ Fondunun dəstəyi ilə paytaxt Vaşinqtonda göstərilib. Məzunlardan Dəmir Abdullayev, Kəmalə Əkbərova, Məxmər Quliyeva, Şəhla Ağayeva, Azər Bəhramov, Minayə, Tərlan, İradə, Aybəniz və başqaları bu görüşdən məmnun qaldıqlarını, bu görüşü tezliklə işğaldan azad olunan torpaqlarında qeyd edəcəklərini bildirdilər. Məktəbi 1979-cu ildə bitirmiş məzunlar yeniyetmə sevinci ilə bir-biri ilə görüşür, sevincdən kövrəlirdilər. Bir-birinin ailə, iş həyatı, sağlamlığı ilə maraqlanır, hal-əhval tuturdular. Sinif nümayəndəsi olan Məxmər xanım uşaqların adlarını bir- bir çəkdi: "Burdayam" - deyən uşaqlar özləri haqda məlumat verdilər. Keçmiş sinif nümayəndəsi 42 il ərzində dünyasını dəyişən, ölkə xaricində yaşayan, görüşə gələ bilməyənlər haqqında qısa məlumat verdikdən sonra vəfat edən sinif yoldaşlarınını və müəllimlərini yad etdilər.

Daha sonra məşhur "Məktəb illəri" mahnısının sədaları altında məzunlar uşaq kimi sevindilər. Bir neçə saatlıq uşaqlaşan, qayğısız illərinə qayıdan məzunlar çox xoşbəxt görünürdülər. Görüş unudulmayan xatirələr işığında davam edib.

**Zöhrə MƏMMƏDOVA**